səs

2 aprel 2015-ci il

# Məşhur rusiyalı rejissor azərbaycanlı həmkarları ilə birgə layihələrə imza atmaq niyyətindədir



***Rusiya Kinematoqrafçılar İttifaqının sədri, Rusiya Mədəniyyət Fondunun prezidenti, məşhur kinorejissor Nikita Mixalkov Bakıya səfərə gəlib. Martın 31-də sənətkar Nizami Kino Mərkəzinin mətbuat klubunda Azərbaycan kinematoqrafçıları ilə görüşdü və gənc rejissorlara ustad dərsləri keçdi.***



Görüşdə çıxış edən Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, xalq artisti Şəfiqə Məmmədova qonaq haqqında ətraflı məlumatı iştirakçıların nəzərinə çatdırıb. Bildirib ki, ilk filmini 28 yaşında çəkən Nikita Mixalkov tezliklə öz dəsti-xətti ilə seçilən rejissorların sırasında yer alıb. Uzun illərdir ki, Rusiya Kinematoqrafçılar İttifaqına sədrlik edən sənətkarın yaratdığı Kino Akademiyasında təhsil alan aktyor, rejissor və operatorların sayı ildən-ilə artır.

Sonra söz qonağa verilib. Nikita Mixalkov Bakıya səfərindən və belə görüşün təşkil edilməsindən məmnunluğunu bildirdi. Qeyd etdi ki, kino sənəti, rejissor və aktyor işi ilə bağlı təcrübəsini gənc azərbaycanlı həmkarları ilə bölüşmək onun üçün xoşdur və inanır ki, bu təcrübə gələcəkdə onlara işlərində kömək ola bilər. Rejissor qeyd edib ki, Bakıya qısamüddətli səfəri zamanı azərbaycanlı həmkarları ilə fikir mübadiləsi apararaq gələcəkdə bir sıra layihələrin reallaşmasına imza atmaq niyyətindədir.

Yaratdığı Kino Akademiyanın fəaliyyəti barədə geniş məlumat verən rejissor, bildirdi ki, kino həm də sosial xətdir. Elə bu səbəbdən də akademiyada təhsil alanlar öz istedadları ilə seçilirlərsə, bu zaman onlar təhsil haqqının yalnız 10%-ni ödəyirlər.

Kino təcrübəsindən söz açan Nikita Mixalkov qeyd edib ki, kino kollektiv, ailəvi sənətdir. Çəkiliş meydançasında bir araya gələn rejissor, operator, aktyor və texniki işçilər əgər çəkiliş boyunca bir ailə kimi atmosferi qoruya bilmirlərsə, bu ailənin yaradacağı yeni körpəni, yəni filmi hamı eyni dərəcədə sevmirsə, bu zaman mütləq nəsə çatışmazlıq baş verəcək. Ona görə də, kino sənətində, çəkiliş meydançasında həm mehriban, həm sevincli, həm də sərt və ciddi olmaq vacib şərtdir. Yalnız bu zaman gözəl sənət nümunəsi yarana bilər.

Rejissor, həmçinin bildirdi ki, teatr səhnəsindən fərqli olaraq, aktyor üçün kinoda oynamaq daha çətindir. Çünki teatrda aktyor tamaşaçını hiss edə bilir, kinoda isə o, təkdir. Məhz buna görə də çəkiliş zamanı bütün heyət aktyoru duymalı, onun oyununa həssas yanaşmalıdır: “Kinonu çəkmək çox çətindir. Yaxşı, yaxud pis - fərq etməz. Buna görə də bütün heyət bir-birinin uğuruna sevinməli, məhəbbət və sevgi olmalıdır. Bunlar olmadısa, o film təbii alına bilməz. Bu isə çox çətin mərhələlərdən keçən bir prosesdir”.

İki saatdan çox davam edən ustad dərsindən sonra rejissor azərbaycanlı gənc kino mütəxəssislərinin suallarını cavablandırdı, intellektual kino, Amerika kinosu və müasir zaman, filmlərindəki mesajlarla bağlı fikirlərini bölüşdü. Nüfuzlu kino festivallarının mükafatçısı, “Oskar” laureatı Nikita Mixalkov öz uğurlarının səbəbi və ümumilikdə dünya kinosu ilə bağlı sualları da cavablandırdı.